# Əbülfət Mədətoğlunun pannosu

**Bəlkə də xatırlatma belə artıqdır ki, ədəbiyyatşünaslıq ədəbiyyatın formasını, məzmununu, onun nə dediyini və nə demək istədiyini tədqiq edən, hətta proqnozlaşdırmaq missiyasını üzərinə götürən elmdir. Bütün bunlara baxmayaraq, ədəbiyyatşünaslıq heç vaxt lokomativ olmayıb, ədəbiyyat qatarının vaqonlarından başqa hansısa effekt yaratmayıb.**

Ədəbiyyatşünaslıq, sadəcə olaraq, ədəbi fakt üzrə sözünü deyib, azından, üç min ilə yaxındır ki, belədir. Hər halda, bu günümüzə çatan yazılı mənbələr də təsdiq edir ki, hətta Aristotel belə, ədəbiyyatda görmək istədiyini deməkdən başqa bir yol görməyib:

O, sadəcə olaraq, ədəbiyyatın, xüsusən, poeziyanın statistik insanın həyatında oynaya biləcək rolunu və o rolun formalarını sadalaya bilib, həmin formalardan hansının daha səmərəli olacağı ehtimallarını bölüşüb.

Buna görə də teatrın katarsis rolundan danışan Aristotel öz "Poetika"sında poeziyanın imkanlarına xüsusi önəm verir, onun insanı yarada biləcək gücündən söhbət açırdı.

Aristoteldən neçə min il sonra Yəhya Kamal Beyatlı poeziyanı, konkret olaraq şeiri "Bildiyimiz musiqidən fərqli bir musiqi" olaraq adlandırırdısa, Cahit Sıtkı Tarancıya görə şeir "sözlərlə gözəl şəkillər yaratmaq sənəti"ndən başqa bir şey deyildi. Nəcib Fazıl Kısakürək isə şeir haqqında "mütləq həqiqəti axtarış işidir" söyləyirdi.

Poeziyanın dinamikasındakı proseslərə ötəri nəzər salmaq kifayətdir ki, Şeirin cəmiyyətə inqilabi çağırışlar etdiyini görəsən və onu da görmək mümkündür ki, həmin inqilabi çağırışlara zəruriliyi aradan qaldıracaq İnsanın tərbiyə edilməsi istəyi ilə üzbəüz qalasan.

O insan Sevgi ilə formalaşdırılır.

Ona görə də bilmirik yaxşıdır, ya pis, bizdə inqilabçı şairlərə nadir hallarda rast gəlinib (inqilabçı kimi şərlənənlər bu siyahıya aid deyil).

Hətta Mayakovski və Pasternakın yetişdirməsi kimi təqdim olunsa da yeknəsək Sovet həyatında inqilab sayıla biləcək Xruşov volyuntarizminin ortaya çıxardığı inqilabçı Andrey Voznesenski şeirin daha çox maarifçilik missiyasını qabardırdı. O həmin Voznosenskidir ki, SSRİ-nin şəriksiz yiyəsi Xruşov 1963-cü ildə ən ali tribunadan ona belə səslənirdi: "Yeni Pasternak tapılıb! Biz Pasternaka təklif etdik ki, buradan getsin, Siz necə, cənab Voznasenski, pasport da verək, rədd olub gedirsinizmi ağalarınızın yanına!"

### *Voznasenski haradan ağlıma gəldi?*

Əbülfət Mədətoğlunun "Cəzayam sevdiyim qıza" kitabını oxyarkən həmən Voznesenskinin fikirlərini xatırlayıram: "Bir şeirdə uğurlu misra varsa şeir, kitabda bir yaxşı şeir varsa, kitab gözəldir".

Əbülfətin kitabında isə insanın içini oynadan, Onun duyğularını sığallayan şeirlər kifayət qədərdir və pıçıltıyla deyilən bu etiraf o qədər doğma gəlir ki:

**Bütün olmuşları sözə çevirib,**
**Təklikdə özünə pıçıldayarsan.**
**Sən mənim ömrümün sevgi çiçəyi,**
**Məndən sonra da sən puçurlayarsan...**

Onun umu-küsüsü də səmimidir, doğmadır. Bu doğmalığın içindən kədərli gözləri ilə üzünə baxan insanı apaydın görmək mümkündür. O gözlərdəki kədər isə öz narahatlığını, kədərin yuvasını göstərir:

**Yaman doluxsunub, gözün yaş tutub,**
**Bu qız ağlamaqçün bir himə bənddi.**
**Mənim taleyimi yaman unudub,**
**indi yaşamağım tilsimə bənddi...**

Həmin kədərdə o tilsimin gözləntisi dil açıb danışır.

Əbülfət Mədətoğlu, əlbəttə, peyğəmbər deyil və peyğəmbər olmadığına görədir ki, hansısa möcüzə yaratmağa da iddialı görünmür- o, sadəcə olarq, insan ömrünün yaşantılarını ifadə edir. Bu ifadə forması o qədər sadə və doğmadır ki... O doğmalığı isə kitabı oxuduqca yaşayır və hansı məqamdasa artıq şairin həmsöhbətinə çevrildiyinin fərqində olmursan. O şeirlər isə səni təkcə məhəbbətinin izharında deyil, itirdiyi Ocağının istiliyini belə xatırlatmaqda, beləliklə də özü çəkəcəyi Dərdi bölüşməkdə tərəddüdlü görünən bir insanın dumduru portretini yaradır. Həmin portretdən boylanan lirik Mən öz ştrixləri ilə o qədər aydın çalarlar yaradır ki...:

**Dərd içimdə çayırdı,**
**Dörd yanıma yayıldı...**
**Günlər ömür sayıldı,**
**Ağ yuyub qara geyim.**

Həmin ştrixlərin canlandırdığı portretdın boylanan deyil, üzbəüz dayanıb da danışan Əbülfət Mədətoğludur. Həmin Mədətoğlu ki, içindəki duyğuların bircə parçası ilə üzbəüz dayanıb ürəyini boşaltmaq üçün təngənəfəs dünyanın bir hovur nəfəs almasını gözləyir. O duyğular "Etiraf" şeirində o qədər sərrast ifadə olunb ki...

Qoca Eynşteyn deyirdi ki, istənilən müqayisə qüsurludur yəni tam deyil, mükəmməl nəticəyə bel bağlamaq olmaz. Buna görə Əbülfət Mədətoğlunun yaratdıqlarını nə şifahi, nə də ki yazılı ədəbiyyatımızdakı hansısa poetik nümunələrlə müqayisə etmək fikrində olmasaq da onu Şeiri bakirə Eşqin ünvanına çevirmiş Mikayıl Müşfiqlə müqayisə etmək yerinə düşər. "Etiraf" şeirində şairin lirik Məni o qədər səmimidir ki, bu səmimiyyəti ancaq bölüşmək olur:




**Düşüncəm, xəyalım perikdir, perik,**
**Önümdə gah dünən, gah bu gün durur...**
**Sinəmdə edilmiş bu şum da herik-**
**Payız ürəyimə düyünlər vurur!...**

**Açıb tökməyəcəm, süfrə deyil ki,**
**Mənim yaşadığım min kitab yazı...**
**Məni tale özü elə əyir ki,**
**Ömrüm körpü olsun səninçün azı...**

Kitabdakı şeirlərin hər biri insan ömrünün anlarını sıralayır və yaranan bu silsilə təkcə yaşanmış ömrün mənasını deyil, o ömrün can atdığı dünyanı da göstərə bilir. Qarşımızdakı həmin mənzərədə min illərin suallarını müxtəlif formalarda dinləmək olur. Verilən sualların cavablarını da həmin mənzərələrdə görmək mümkündür. Ən ümidsiz cavablar belə oxucuda bədbinlik yaratmır- Əbülfət Mədətoğlu Tanrının qapısını o ümidin ünvanı kimi göstərir:

**Sökülüb çuxam, Allah,**
**Bəlkə də yoxam, Allah!**
**Bu mənim yaxam, Allah,**
**Ruhumu yerdən götür!...**

O, ancaq özünün deyil, ümumilikdə hamımızın, özünü insan bilənlərin içindəki Dərdin heykəlini yaratmaq üçün sözün imkanlarını səfərbər edir. Bəzən sözün belə nəyisə ifadə etməkdə çəkdiyi çətinliyi Əbülfətin şeirlərində açıq-aydın görmək mümkündür. Mümkünsüz olan isə ovutmaq üçün tapılmayan sözdür. Həmin tapılmayan sözdə isə günah axtarmağa dəyməz. Sözün nə günahı? Söz olanı və olacaq kimi görünəni, həmin olanla olacaqları ifadə edə bilər ancaq... Onlar isə hələlik yox kimi görünür və "yox"luq şairi göynədir- o, dilsiz-ağızsız torpaqlara üz tutur, canlı, konkret insanlara veriləsi sualları da həmin yerlərə verir:

**Əlim daşını öpmür,**
**Zirvələrni gözlərim...**
**Mən uzaqdan nə qədər**
**Baxa- baxa közərim,**
**Qarabağım, Qarabağ?!**
**Ahım nədi?- can odu!**
**İçim yanmaqdan sönüb...**
**Qaralan ürəyim də**
**Artıq kösövə dönüb-**
**Qarabağım, Qarabağ?!**

Bu daşa-torpağa verilən sualların əslində bir Millətə ünvanlandığı məlumdur. Həmin millətə ki, O, Qarabağsız, bəlkə də yaşaya bilər, Şuşada göylərnən danışmağın nə olduğunu, Laçına tərəf üz tutmağın nəyə görə zəruriliyini, Kəlbəcərdəki İstisudan bircə ovuc suyun gərəyini bəlkə də unudar və yaşayar. Amma o yaşamaqdırmı? Şeirin leytmotivi budur. Şeirin təlqin etdiyi təsəvvür həmin yarımçıqlığın yarada biləcəyi dəhşətli səhnədir.

Əlbəttə, ədəbiyyatın missiyası haqqında min, yüz minlərlə qiymətli fikirlər var və tərəddüdsüz olaraq demək olar ki, həmin fikirlərin ən uğurlularından biri velikorus təfəkküründən uzaq bir dahinin Maksim Peşkov-Qorkinin qənaətidir: "Ədəbiyyat, insan qəlbinin mühəndisidir."

Qəlbsiz isə insanın mahiyyəti varmı...?

Əbülfət Mədətoğlu növbəti kitabının sonunda öz-özü ilə üzbəüz qalmış insanın daxili monoloqunu

"Xatirələrimi" şeirində yenə bizi ümid nuruna bələyir:

**Mən dərddən tonqal çatıb,**
**İsinirəm odunda...**
**Ürəyində yerim yox,**
**Barı saxla yadında-**
**Xatirələrimi...**

**Bəlkə qarabasmadı,**
**Bəlkə gerçək bir yuxu...**
**Yaş axmağa başladı,**
**Yaxınlaş, daşdan oxu-**
**Xatirələrimi...**

Heç cür demək olmaz ki, bu notlar bədbindir, əksinə, həmin notlar insanı mənalı yaşamağa çağırışdır.

**Ümid edirik ki, Əbülfət Mədətoğlundan həmin çağırışları təkrar-təkrar eşidə biləcəyik.**

**Kəramət,**
**Firuz Kazımoğlu**